*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 58-64*
https://doi.org/10.62837/2024.6.58

**ƏMINƏ BABA QIZI QƏDIMOVA**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dosenti, pedaqogika üzrə fəlsəfə doktoru**

# HEYDƏR ƏLİYEVİN ANA DİLİNƏ BÖYÜK QAYĞISI

**Açar sözlər:** Müstəqil Azərbaycan Respublikası, Heydər Əliyev, dövlət dili, ana dili, dilin inkişafı, ünsiyyət

**Ключевые слова:** Независимая Азербайджанская Республика, Гейдар Алиев, государственный язык, развитие языка, общение на русском, английском языках.

**Key words:** Independent Republicof Azerbaijan, Heydar Aliyev, state langufge, mother tongue, language devetopment, communication in

Hər bir xalqın varlığının yeganə təminatçısı kimi onun milli-mənəvi dəyərlərinin qorunub saxlanmasında, inkişaf etdirilməsində, əsrlərdən-əsrlərə, nəsillərdən-nəsillərə ötürülməsində dil mühüm rol oynayır. Azərbaycan dili də xalqımızın milli varlığını müəyyənləşdirən başlıca amillərdəndir və dövlət rəmzlərimiz olan himn, gerb və bayraq kimi müqəddəsdir.

Dil insanlar arasında mühüm ünsiyyət vasitəsidir. Dil millətin ən əsas milli dəyəri və onun milliliyini təmin edən vacib artibutudur. Çünki milli varlığının mədəni təməllərə bağlayan dilimizdir. Dil güclü bədii təsir vasitəsi olmaqla milli mədəniyyətin tərəqqisində əsas rol oynayır. Milli dili inkişaf etdirmədən ədəbiyyatı, ümumiyyətlə milli mədəniyyəti inkişaf etdirmək olmaz. Xalqın sosial-iqtisadi, mədəni həyatı dildə özünün ifadəsini tapdığı kimi, öz növbəsinə dil xalqın inkişafında böyük rol oynayır. Dil xalqın mədəni səviyyəsinin mühüm göstəricisidir. Düzgün, mənalı danışmaq bacarığı şəxsiyyətin ümumi inkişafı və mədəni olmasını göstərən mühüm əlamətləridir. Xalq özünün kim olduğunu, onun milli varlıq kimi şərtləndirən amilləri dərindən bilməlidir. Özünüdəretmə tərəqqi və inkişafın mühüm vasitəsidir. Onun təşəbbüsü ilə dövlətimizin ideoloji əsasları formalaşmışdır.

Məlumdur ki, dil ən mühüm ünsiyyət vasitəsi olmaqla xalqın milli birliyinin yaranmasında, millətin təşəkkülündə böyük rol oynayır. Lakin bu proses, yəni milli dillərin təşəkkülü və inkişafı prosesi kəskin ideoloji mübarizə şəraitində keçir.

Azərbaycan dili, onun inkişafı məsələləri XX əsrin əvvəllərində belə bir siyasi-pedaqoji mübarizənin obyekti olmuşdu. Azərbaycan dilinin müstəqilliyi, saflığı və tərəqqisi uğrunda mübarizəni həyat özü, o dövrün konkret tarixi şəraiti bütün kəskinliyi ilə qarşıya qoyur.

Keçmiş İttifaqda ruslaşdırma siyasəti müxtəlif üsullarla həyata keçirilirdi, bu siyasətin mərkəzində milli respublikalarda yerli dillərin sıxışdırılması, ana dilinin tətbiq sahələrinin məhdudlaşdırılması, əvəzində rus dilindən istifadənin genişləndirilməsi işi dayanırdı. Partiya və sovet orqanlarında kargüzarlıq işləri, bir

qayda olaraq, rus dilində aparılırdı, respublikaların mərkəzi şəhərlərində orta ümumtəhsil məktəblərinin çoxu rus dilli idi, ali məktəblərin rus bölmələrinə qəbula üstünlük verilirdi. Bu siyasət türk-müsəlman respublikalarında daha intensiv həyata keçirilirdi. Ali məktəblərin Azərbaycan bölmələrində də dərslərin rus dilində aparılması təklifləri eşidilirdi.

1969-cu il iyulun 14-də Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildikdən sonra azərbaycanlılara qarşı qarşı münasibət kökündən dəyişdi. H.Əliyevin rəhbərliyi ilə Azərbaycan iqtisadi və sosial həyatda, elm, mədəniyyət, incəsənət, təhsil, texniki tərəqqi sahəsində böyük uğurlar əldə etdi.

1970-ci illərdə və 1980-ci illərin əvvəllərində Azərbaycan xalq təsərrüfatı o vaxta qədər bərabər olmayan bir sürətlə inkişaf və yüksəliş dövrü keçirirdi, respublikanın iqtisadiyyatı, xalqın güzəranı yaxşılaşmışdı. O zaman respublika rəhbərlik edən Heydər Əliyev mədəniyyətin, ədəbiyyatın inkişafına da xüsusi diqqət yetirirdi. Azərbaycanlılıq ruhu hər sahədə hiss olunurdu. Sovet ənənəsinə uyğun olaraq, dövlət səviyyəsində olan böyük yığıncaqlarda, hətta partiya konfrans və qurultaylarında Azərbaycan türk dili səslənirdi. Vətənin və xalqını sevən milli ziyalılarda ruh yüksəkliyi əmələ gəlmişdi. Milli mənliyə zərbələr xeyli zəifləmişdir və aradan çıxarılırdı. Lakin Heydər Əliyev respublikadan gedəndən sonra bu xətt davam etdirilmədi, Moskva yenidən "hücuma başladı" və nəhayət, 1980-ci illərin ortalarında respublikada rus dilinin tətbiq sahələrinin genişləndirilməsi haqqında məsləhət tərzli göstəriş alındı. Burada ali məktəblərdə də rus dilində tədrisin genişləndirilməsi nəzərdə tutulurdu. Bu, ali məktəb tədrisində Azərbaycan rürk dilinin sıxışdırılması planı idi.

Bir çox başqaları kimi, universitet rəhbərliyi bunu adi hal kimi qəbul etdi, göstəriş var, həyata keçirilməlidir. Bununla belə, vətənini, milllətini, ana dilinin qeyrətini çəkən ziyalılar da vardır. Onlar heç bir şeydən çəkinmədən bu siyasət qarşısında sipər olur, rus dilinin rolunu inkar etmədən, onun ikinci dil kimi tədrisinin və rus dilli məktəblərin əhəmiyyətini azaltmadan, bu dilin şovinizm məqsədilə istifadəsinə, Azərbaycan türk dilinin mövqelərini sıxışdırılmasına qarşı çıxırdılar.

"Dilimiz çox zəngin ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm..." Bu müdrik sözlər Ulu Öndər Heydər Əliyeva məxsusdur. Bütün həyatını doğma xalqının, vətəninin inkişafına, intibahına həsr edən, bu yolda misilsiz tarixi uğurlar qazanan H.Əliyev Azərbaycan dilinə həmişə layiqincə diqqət yetirib, uzaqgörənliyi ilə xüsusi qayğı göstərib.

Azərbaycan dilinin inkişafı və zənginləşməsinə qayğının gücləndirilməsində Heydər Əliyev cənablarının xidmətləri danılmazdır. Hələ sovet dövründə, imperiya qadağalarına baxmayaraq, dilimizin dövlət dili statusu alması, Azərbaycan dili alimlərinin yüksək dövlət mükafatına layiq görülərək daha böyük tədqiqat işlərinə ruhladırması, nəticədə Azərbaycan dilçiliyinin sürətli inkişafı, eləcə də dahiyanə nitq mədəniyyəti ilə hamıya nümunə göstərməsi Heydər Əliyevin şərəfli xidməti idi. Bu

Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, ISSN 2224-9257
Filologiya məsələləri № 6, 2024
Səh. 58-64
Azərbaycan Respublikasının 30 illik rəhbərliyi dövründə qarşılaşdığı maneə və çətinliklərdən çəkinməyərək ana dilimizin dövlət səviyyəsinə yüksəlməsinə və bu aktın Azərbaycan SSR Konstitusiyasının (1978-ci il) daxil edilməsinə nail olmuşdur. Məhz onun respublikaya rəhbərlik etdiyi 70-ci illərdə ana dili kadrların dövlət idarələrində mühüm vəzifə tutmasına şərait yaranmışdır.

"Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası prezidentinin 18 iyun 2001-ci il tarixli fərmanını Heydər Əliyevin on illər boyu davam edən uyğurlu dil siyasətinin fundamental yekun sənədi adlandırmaq olar. Dilimizin ən qədim tarixinə obyektiv elmi-tarixi qiymət verən, Azərbaycan dilinin türk köklü müstəqil dil olmasını bir daha təsdiqləyən, onun əsas təkamül mərhələlərini, inkişaf yollarını dahiyanə bir müdrikliklə, elmi-nəzəri əsaslarla izləyərək son söz deyən, rəsmi dövlət münasibəti bildirən bu fundamental tarixi sənəd H.Əliyevin dil siyasətinin uğurlar miqyasını daha da genişləndirdi. Dil haqqında XIII əsrin Məhəmməd bəy Qaramanoğlu, XVI yüzilliyin Şah İsmayıl Xətai fərmanlarını yada salan, lakin o tarixi göstərişlərdən daha bütöv, daha bitkin olan Heydər Əliyev fərmanı Azərbaycan dili, Azərbaycan milli mənəviyyatı uğurlar qazanacaq.

Bu bir həqiqətdir ki, dili yaşadan və inkişaf etdirən xalq, xalqı yaşadan dil olsa da, hər bir dilin inkişafı, zənginləşməsi və beynəlxalq nüfuza yüksəlməsində qüdrətli dövlət xadimlərinin xidmətləri misilsiz olur. Bu baxımdan Azərbaycan mədəniyyəti tarixində iki böyük şəxsiyyətin adı qeyd edilməlidir. Bunlardan biri XV əsrdə yaşamış, Azərbaycan dilini dövlət dili səviyyəsinə qaldırıb ona dövlətçilik dilinin möhrünü vuran Şah İsmayıl Xətai, ikincisi XX əsrin keşməkeşli dövründə yaşayan, Azərbaycan dilini beynəlxalq aləmdə diplomatiya dilinə, dövlət dilinə yüksəldən Heydər Əliyevdir. Heydər Əliyev həmişə Azərbaycan dilinin qorunması keşiyində durmuşdur. O, dil sahəsində aparılan səhv siyasətin yaramazlığını elmi dəlillərlə şərh edərək dilimizlə bağlı buraxılan nöqsanları səbr və təmkinlə, zəngin faktlarla tarixi reallıq əsasında təhlil edərək, dilimizin saflığının, onun qüdrətinin qorunmasını lazım bilmişdir.

Çox böyük ictimai-mənəvi əhəmiyyəti olan problemlərdən biri də Azərbaycan dilinin respublikada kütləvi hakim danışıq dilinə çevrilməsi ilə bağlıdır. Ulu öndər Heydər Əliyev deyir: "...Dil hər bir millətin milliliyinin əsasıdır. Ona görə də hər bir gənc öz ana dilini, Azərbaycan dilini, müasir Azərbaycan dilini gərək ən incəliklərinə qədər bilsin və bu dildən istifadə etsin. Biz müstəqil Azərbaycanda Azərbaycan dilini dövlət dili etdiyimiz kimi, cəmiyyətimizdə də, xalqımızın içində də Azərbaycan dilini mütləq hakim dil etməliyik".

H.Əliyevin təşəbbüsü ilə 1995-ci il oktyabrın 31-də Azərbaycan Respublikasının EA rəyasət heyətinin binasında yaradıcılıq ittifaqları və birliklərin, alimlərin iştirakı ilə Müstəqil Azərbaycan Respublikasının Konstitusiyasında dövlət dilinin adı məsələsi geniş müzakirə olundu. Müzakirədə iştirak edənlərin çıxış etmələrinə, fikirlərini söyləmələrinə şərait yaradıldı. Bu müzakirələr mübahisəli fikirlərin aradan qaldırılmasına səbəb oldu. Prezidentimiz çox məzmunlu nitqində Azərbaycan dilinin keçdiyi zəngin tarixi yolu elmi dəlillərlə təhlil edərək obyektiv

aydınlaşdırdı. H.Əliyev dedi: “Biz müstəqil dövlət kimi dünyada artıq öz yerimizi tutmuşuq. Ona görə də hansı qərar qəbul edəcəyiksə, gərək bu, milli mənliyimizə, milli məğrurluğumuza toxunmasın. Nizaminin sözləri də bizim üçün əzizdir, Füzulinin sözləri də bizə əzizdir, C.Məmmədquluzadənin, M.F.Axundovun sözləri də, Cavidin sözləri də bizim üçün əzizdir. Hamısı bizim üçün əzizdir. Amma bu gün reallıq var. Reallıq bütün bu tariximizin hamısından üstündür və bizim üçün gələcəyə böyük bir yol açır”. Bu fikirlərdə Azərbaycan dilinin gələcək inkişafı yollarının aydın metodologiyası verilir. Onun “...öz dilini bilməyən, öz dilini sevməyən adam öz tarixini yaxşı bilməz. Ana dilini bilməyən adam Nizamini, Füzulini, Nəsimini, Vaqifi, Cavidi, Sabiri, Mirzə Cəlili, Səməd Vurğunu oxuya bilməz...”, “...Azərbaycan çox millətli, demokratik bir dövlətdir. Millətindən asılı olmayaraq hər bir vətəndaş üçün Azərbaycan Ana vətəndir”, “...Milli-mənəvi dəyərlərimizi toplamaq, qorumaq, gələcək nəsillərə çatdırmaq hər birimizin ən müqəddəs borcudur” kimi müdrik kəlamları dərin mənalı tərbiyəvi fikirlərdir. Bu fikirlər H.Əliyevin irsindən möhtəşəm tərbiyə məktəbidir.

Bu günün reallığını əsas götürməklə bizim dünyada “Azərbaycan Respublikası”, “Azərbaycan xalqı”, “Azərbaycan dili” adları ilə tanıdığımızı bəyan etdi. “Azərbaycan dili” adını bu günün reallığı və dövlətçilik manefeyindən müdafiə edən H.Əliyev bu anlayışın “türk”lüyə zidd olmadığını da dərin mühakimə və məntiqi ilə bir daha təsdiqlədi.

O, bildirdi ki, biz türk mənşəli millətik və türk dili xalqların dilinə mənsub olan dilimiz var.

Ümummilli Lider H.Əliyev, bir qayda olaraq nitq və çıxışlarında Azərbaycan dilinin dövlət dili kimi beynəlxalq nüfuzunun yüksəlməsinə, gənclərin ana dili və xarici dilləri dərindən öyrənmələrinə xüsusi əhəmiyyət verilir.

“Azərbaycan dilinin tədrisinə mühüm diqqət yetirilməlidir. Bizim zəngin söz ehtiyatına malik olan Azərbaycan dilimiz var”.(2. s.169). Heydər Əliyev Azərbaycan dilinə verdiyi bu yüksək qiymət ilk növbədə müəllimlərimizin təhsil müəssisələrində Azərbaycan dilinin öyrənilməsinə xüsusi diqqət yetirmələrini tələb edir.

Azərbaycan yazıçılarının X qurultayındakı “Bizim ədəbiyyatımız, mədəniyyətimiz xalqımızın milli sərvətidir və intellektual mülkiyyətidir” adlı nitqində Heydər Əliyev haqlı olaraq qeyd edir ki, bu gün biz müstəqil bir dövlətik. Çox fəxr etdiyimiz bir də odur ki, bizim gözəl Azərbaycan dilimiz var. Əlbəttə, bu dil əsrin əvvəllərindəki dil deyil, amma ondan qat-qat təmiz dildir. Bu, bizim ən böyük sərvətimizdir.”(1.).

Ulu öndər Heydər Əliyev Azərbaycan dilinin qorunmasına və inkişafına tarixin bütün dövrlərində xüsusi diqqət yetirmişdir. 2001-ci il iyunun 18-də Ümummilli Lider “Dövlət dilinin təkmilləşdirilməsi haqqında” fərman imzalamışdır. Həmin fərmanda Azərbaycan prezidenti yanında Dövlət Dili Komissiyasının yaradılması da nəzərdə tutulurdu. 2001-ci il avqusun 9-da Azərbaycan prezidenti yeni fərman-“Azərbaycan əlifbası və Azərbaycan dilinin təsis edilməsi haqqında” mühüm bir sənəd imzaladı. 2003-cü il yanvarın 2-də ölkə rəhbərinin yeni bir fərmanı ilə

"Azərbaycan Respublikasının dövlət dili haqqında" Azərbaycan Respublikasının qanunu qüvvəyə mindi. Həmin qanunda dövlətin ana dilinə qayğısı sayəsindəki əsas vəzifələr dəqiq şəkildə göstərildi. (4.s.23) Azərbaycan Respublikası prezidentinin 18 iyun 2001-ci il tarixli fərmanı, dahi şairimiz Məhəmməd Füzulinin 500 illiyi Azərbaycan varlığının ensiklopediyası sayılan "Dədə Qorqud" eposunun 1300 illiyinin dünya miqyasında təntənə ilə qeyd edilməsi, respublikamızda Azərbaycan dili haqqında qanun ciddi elmi-praktik müzakirələri bunu bir daha təsdiq etdi . Müdrik Heydər dilinə o tarixi xidmət bu gün, müstəqillik dövründə daha böyük miqyasda davam etdirilir. "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Əliyevin doğma Azərbaycan dili uğurunda on illər boyu necə şərəflə, cəsarətlə, elmi-nəzəri əsaslara söykənən prinsipiallıqla mübarizə aparması, obyektiv, real nəticələrə aid olması dünyada yaşayan bütün azərbaycanlılara gözəl nümunədir. Azərbaycan dili bu gün müstəqil bir dövlətin dili kimi zənginləşmək üçün real imkanlara və münbit şəraitə malikdir. Bu perspektiv Azərbaycan dili üçün məhz müstəqillik mərhələsində əldə edilmişdir. Azərbaycan dili müstəqillik mərhələsində öz müvazinətini itirmədi. Azərbaycan dili özünün zəngin ənənələri bazasında böyük şəxsiyyət Heydər Əliyevin yaratdığı proqram üzrə inkişaf etməkdədir. Hər bir azərbaycanlının müqəddəs və mənəvi borcu olan ana dilimizi qorumaq, inkişaf etdirmək, gələcək nəsillərə ötürməkdir.

**Məqalənin aktuallığı:** Heydər Əliyevin ana dili haqqında verdiyi qərarlar tədqiqatımız üçün hər zaman aktual mövzulardan olmuşdur.

**Məqalənin elmi yeniliyi:** Ümummilli Lider H.Əliyevin həyatının əbədi, ictimai-siyasi fəaliyyətinin araşdırılması baxımından yenilik hesab oluna bilər.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi:** Məqalə doktorantların, bakalavr və magistrların elmi araşdırmaları üçün elmi qaynaq ola bilər.

## Ədəbiyyat

1."Azərbaycan müəllimi" qəzeti, 11 noyabr, 1997
2.Əliyev Heydər. Təhsil millətin gələcəyidir. Tərtib edənlər M.Mərdanov, Ə,Quliyev. Bakı.2002
3.Əliyev H. Müstəqilliyimiz əbədidir. I cild. Bakı. 1997
4.Əliyev H.Müstəqilliyimiz əbədidir. II cild. Bakı. 1998
5.Əliyev H.Təhsil, bilik, tərbiyə. Bakı. 2006
6.Əliyev H. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı. 2007
7.Xalq qəzeti-2012.-14 iyun
8.Qarayev Y. Tarix. Yaxından və uzaqdan. Bakı. 1996

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 58-64*

**А.Б.Кадимова**

**Большая забота Гейдара Алиева о своем родном языке**

**Резюме**

Обучение родному языку имеет большое педагогическое значение в образовательных учреждениях. Задача школы и учителя в обучении родному языку очень большая и ответственная. В определении мыщдения ревенка и определении пути развитие этого мыщдения обучение родному языку имеет чрезвычайно важную роль в системе общего образования.

Важность родного языка в системе общего образования обусловлена тем, что успех всех остальных учебных предметов во многом зависит от успешности предмета родного языка. Среди предметов, входящих в систему образования в школе, ролной язык занимает очень важное место, поскольку язык является средством понимания, общения и влияния на окружающую среду. Язык, являясь основным средством обучения, является одновременно и оружием мышления.

Быть грамотным на родном языке, свободно читать и писать на этом языке и готовить почву для более активного участия в общественной и политической жизни. Изучая родной язык, ребенок обогащает свой разум новыми идеями и быстрыми абстрактными мыслями и идеями.

В жизни Гейдара Алиева проявились самые благородные, щбщечеловеческие, человеческие качества, тдеи об образовании, которые и сейчас не потеряли своего значения. Главный девиз Гейдара Флиева патриотизм, борьба, чрабрость верность народу, ненависть к врагу, единство и другие положительные качества и мотивы нашли свое выражение в новом содержании и формах и стали памятником духовности народа. Исследуются возможности и преимущества использования Алиевских языковых решений, определяются решения, принятые Гейдаром Алиевым в период его руководства, и отражаются предложения, связанные с системной организацией этой работы. Решения, принятые в отношении азербайджанского языка, всегда принесут большую пользу будущим исследователям в этом отнешении.

**A.B.Gadimova**

**Heydar Aliyev's great concem for his mother tongue**

**Summary**

Mother tongue teaching is a matter of great pedagogical importance in educational institions. The task of the school and the teacher in teaching the mother tongue is very big and responsibie. In determining the development path of that thinking, the teaching of the mother tongue has an extremely important role in the general education system.

The importance of the mother tongue in the general education system comes from the fact that the success of all other educational subjects depends mostly on thesuccess of the mother tonguesubjest. Among the subjects included in the education

system at school, the mother tongue occupies a very important place, because language is a means of understanding, communication and influence on the environment. Language, being themain means of education, is also a weapon of thinking.

Being literate in one's mother tongue, reading and writing freely in that language, and preparing the qround for more active and actve participation in social and political life. By learning the mother tongue, the child enriches his mind with new ideas and fast, abstract thoughts and ideas.

Heydar Aliyev life has expressed the most noble, universal, humanqualities, ideas about education thathave not lost their value even now. Heydar Aliye's main motto: patriotism, struggle, bravery, loyalty to the people, hatred of the enerny, unity and other positive qualities andmotives were expressed in new contents and forms and became a monument of the people's spirituality. The possibilities and advantages of using Aliyev's language-related decisions are investigated. The decisions made by Heydar Aliyev during his leadership are determined, and suggestions related to the systernatic organization of this work are reflected. Decisionsmade to the Azerbaijani language will always be of great benefit to future researchers in this regard.

**Redaksiyaya daxil olma tarixi: 03.06.2024**
**Çapa qəbul olunma tarixi: 28.06.2024**
**Rəyçilər: f.ü.f.d., dos. V.M.Adilov**
**tərəfindən çapa tövsiyə olunmuşdur**